## MAGİSTR HAZIRLIĞI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Təhsil Qanununun 30-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi "Azərbaycan Respublikasının çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

***A.Rəsizadə***

***Azərbaycan Respublikasının***

***Baş Naziri***

***13 fevral 1997-ci il***

***№ 15***

---

## Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında əsasnamə

### I. Ümumi müddəalar

1.1. Çoxpilləli ali təhsil sistemində magistratura ali təhsilin ikinci pilləsi olub, müəyyən ixtisas üzrə sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlanması məqsədini güdür.

1.2. Magistratura təhsil proqramı, mütəxəssisin gələcək fəaliyyətində elmi-tədqiqat və layihə-sınaq səciyyəli işləri yerinə yetirəcəyini nəzərə almaqla, bakalavr ixtisas təhsili proqramının sonrakı inkişafı və differesiyası yolu ilə qüvvədə olan "Ali təhsil istiqamətləri və ixtisaslarının siyahısı"na uyğun olaraq tərtib edilir.

### II. Magistr hazırlığının başlanılması

2.2. Magist hazırlığı yüksək ixtisaslı elmi-pedaqoji kadrları, müasir tədris və elmi-tədqiqat laboratoriyaları, tədris və fənn kabinələri, zəngin elmi kitabxanası, tədris-təcrübə və istehsalat sahələri, elmi-tədqiqat institutları olan ali təhsil müəssisələrində ali təhsil müəssisələrində ali təhsilin Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş təhsil istiqaməti və ixtisaslar üzrə açılır.

2.2. Tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq ali təhsil müəssisələrində magistraturaların açılmasına razılıq Təhsil Nazirliyinin təqdimatı ilə Nazirlər Kabineti tərəfindən, müəyyən istiqamət və ixtisaslar üzrə magistr hazırlığına icazə isə təhsil müəssisəsinin təqdimatı əsasında Təhsil Nazirliyi tərəfindən verilir.

## III. Ali təhsil müəssisələrində magistr hazırlığını təmin edən şərtlər

3.1. Magistratura təhsil pilləsində kadr hazırlığına iddiaçı olan təhsil müəssisəsində istiqamət üzrə tədris prosesini təmin edən elmi-pedaqoji kadrların ümumi sayının ən azı 50 faizi, ixtisas üzrə isə ən azı 5 nəfəri elmi dərəcəli olmlıdır.

3.2. İki və üç pilləli ali təhsil müəssisəsində magistr hazırlığını həyata keçirmək hüququ aşağıdakılar təmin olunduqda verilir:

- magistr hazırlığı aparılacaq ixtisas və ya istiqamətlərində birinci təhsil pilləsi (bakalavr) proqramları üzrə buraxılış kursunun olması;

bu əsasnamədə magistr hazırlığına qoyulan ümumi tələblərin ödənilməsi;

müvafiq magistr tədris proqramı üzrə işçi tədris planlarının olması;

hər bir magistr tədris proqramları üzrə tədris olunan fənlərin işçi proqramlarının olması;

müasir tələblərə cavab verən maddi-texniki bazanın (tədris və tədqiqat laboratoriyaları,

avadanlıqlar, informasiya təminatı və s.) olması.

3.3. Ali təhsil müəssisəsində magistr hazırlığının məzmununu təmin edən şərtlər:

- magistr təhsili proqramlarına daxil edilmiş fənlərin işçi proqramlarında nəzərdə tutulan tədris-informasiya vasitələrinin lazımi miqdarda olması;

- ali təhsil müəssisələrində müasir milli və beynəlxalq informasiya şəbəkələrinin və məlumat bankları ilə əlaqə terminallarının mövcudluğu və bunlar üçün zəruri miqdarda işçi yerlərinin olması təmin edilməlidir.

3.4. Magistraturanın təhsil istiqamətlərindəki elmi tədqiqatlar magistr proqramlarının mövzuları üzrə son beş ildəki göstəricilər:

- magistratura istiqaməti üzrə aparılan elmi-tədqiqat işlərinin ümumi həcminin yarısından çoxu fundamental və axtarış xarakterli tədqiqatlar olmalıdır;

- magistraturada təhsil alanların (magistrantların) elmi rəhbərləri ixtisaslar üzrə elmi tədqiqatlar aparılmalı, onların bu sahədəki elmi nəticələri respublikada və ya xaricdə nəşr olunan jurnallarda, milli

və ya beynəlxalq konfransların, simpoziumların, qurultayların, konqreslərin materiallarında dərc edilməlidir.

Magistrantların elmi rəhbərlərinin tədris prosesində iştirakı üçün:

müvafiq magistr təhsil proqramı üzrə dərsliklərin (dərs vəsaitlərinin) və ya elmi əsərlərin

(araşdırmaların) müəllifi olması;

- həmin magistr təhsil proqramı üzrə ən azı bir əsas və ya ixtisas kursunu aparması zəruridir.

## IV. Magistraturaya qəbul, magistr hazırlığının müəyyənləşdirilməsi

4.1. Ali təhsilin əsas peşə təhsili proqramlarından biri üzrə təhsilini müvəffəqiyyətlə başa vurmuş və ali təhsil haqqında diplomu olan şəxslər magistraturada təhsil almaq hüququna malikdirlər.

Magistraturaya daxil olmaq istədiyi ixtisas üzrə bakalavr diplomu olmayan ali təhsilli şəxslər həmin ixtisasa uyğun bakalavr hazırlığına qoyulan tələbat həcmində yaranmış akademik fərqləri verməlidirlər.

4.2. Ali təhsil müəssisələrinin magistraturasına müsabiqəyə buraxılma və müsabiqənin keçirilmə qaydaları Təhsil Qanununa, bu Əsasnaməyə, “Ali təhsil müəssisəsi haqqında Əsasnamə”yə və digər qanunvericilik aktlarına, həmçinin təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir və Təhsil Nazirliyi tərəfindən təsdiq olunur.

4.3. Müəyyən təhsil istiqaməti və ixtisasları üzrə magistraturaya dövlət hesabına illik qəbulun səviyyəsi, həmin istiqamət və ixtisas üzrə bakalavr buraxılışının 20 faizinə qədəri müəyyənləşdirilir.

4.4. Magistraturaya daxil olmaq istəyən şəxslər ali təhsil müəssisəsinin müyyən etdiyi siyahı üzrə sənədlər təqdim edirlər.

Magistraturaya qəbul ali təhsil müəssisəsi rektorunun təhsil istiqaməti, ixtisas və elmi rəhbəri göstərilən əmri ilə rəsmiləşdirilir.

4.5. Dövlət ali təhsil müəssisələrində magistr hazırlığı ödənişsiz və ya əvvəlcədən müvafiq qaydada müəyyənləşdirilmiş ödənişli əsaslarla həyata keçirilə bilər. Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində magistr hazırlığının maliyyələşdirilməsi “Ali təhsil müəssisələri haqqında Əsasnamə”yə uyğun həyata keçirilir.

## V. Magistr proqramına qoyulan ümumi tələblər

5.1. Magistr təhsil proqramı uyğun istiqamətlər üzrə bakalavr proqramından və təxminən onunla bərabər nisbətdə müəyyənləşdirilmiş sırf tədris və elmi-tədqiqat tərkib issələrini özündə birləşdirən ikinci pillə proqramından ibarətdir. Bu proqramın tədris hissəsinə peşə təhsilinin dərinləşməsinə yönəlmiş fənlər və bölmələr, eləcə də xarici dil və ixtisas fənləri daxil edilməlidir. Magistrlərin elmi-tədqiqat işinin məzmunu fərdi planla müəyyən edilir (əlavə 1).

5.2. Magistraturada təhsil istehsalatdan ayrılmaqla həyata keçirilir. Magistr təhsilinin normativ müddəti müvafiq dövlət standartları ilə müəyyən edilir və ixtisasdan asılı olaraq 1,5-2 il müəyyənləşdirilir.

5.3. Magistraturada tələbənin təhsilinə elmi rəhbərlik həmin ali təhsil müəssisəsində işləyən, elmi dərəcəsi və yaxud elmi adı olan və bu Əsasnamənin 3.4. və 3.5. bəndlərinin tələblərinə cavab verən elmi rəhbər tərəfindən tələbənin fərdi planına müvafiq olaraq həyata keçirilir. Magistr proqramı müxtəlif istiqamətlərin (ixtisasların) qovuşmasında yerinə yetirildiyi hallarda elmi rəhbərlə yanaşı elmi məsləhətçi də təyin oluna bilər.

Magistr təhsil proqramının həm elmi, həm də tədris hissələrinə ümumi rəhbərlik professor-müəllim heyətinin elmi adı və ya dərəcəsi olan nümayəndələri tərəfindən həyata keçirilir. Bir nəfərə beşdən çox tələbə-magistr rəhbərlik etməyə icazə verilmir.

5.4. Magistr proqramı üzrə təhsildə tələbənin fəal müstəqil işinə daha çox üstünlük verilməlidir. Bununla əlaqədar olaraq onun auditoriya tədris yükü bütün tədris müddətində orta hesabla həftədə 12-20 saat olmalıdır. Tələbənin fərdi tədris planının yerinə yetirilməsinə nəzarət məqsədilə tədris planında nəzərdə tutulmuş bütün fənlər üzrə müxtəlif formada attestasiyalar (məqbullar, müdafiəyə qədər imtahanlar və s.) aparılır. Magistr proqramının mənimsənildiyi (yerinə yetirildiyi) bütün müddət ərzində məqbulların sayına məhdudiyyət qoyulmur, imtahanların ümumi sayı isə 6-10 olmalıdır.

5.5. Magistraturada peşə təhsili proqramlarının strukturuna və məzmununa dair metodik tövsiyələr Təhsil Nazirliyinin elmi-metodik şuralarının müvafiq bölmələri tərəfindən işlənib hazırlanır.

## VI. Magistraturada yekun (buraxılış) attestasiyası

6.1. Magistraturanın axırıncı yekun semestrində buraxılış işinin (magistrlik disertasiyasının) müdafiəsi və buraxılış imtahanı, o cümlədən istiqamət üzrə imtahan verilməsi nəzərdə tutulur.

6.2. Magistrlik dissertasiyası elmi rəhbərin (zəruri hallarda həm də məsləhətçilərin) rəhbərliyi altında yerinə yetirilən müstəqil elmi-tədqiqat və təcrübi-konstruktor işidir. Dissertasiyanın müdafiəsi təhsil müəssisəsinin elmi şurasının qərarı ilə yaradılmış ixtisaslaşdırılmış şuranın iclasında aparılır. İxtisaslaşdırılmış şuraların yaradılma qaydaları Təhsil Nzirliyi tərəfindən müəyyən edilir.

6.3. Magistr hazırlığını həyata keçirmək hüququ olan ali təhsil müəssisələrində magistr proqramı üzrə fərdi planı yerinə yetirmiş şəxslərə magistr ixtisası və elmi dərəcəsi və vahid formada dövlət nümunəli magistr diplomu verilir.

Magistraturanın məzunlarına eyni zamanda əlavə, yəni magistrlik dissertasiyasının mövzusu göstərilən qiymət kitabçasından (cədvəllərindən) çıxarış verilir.